# NİZAMİ FENOMENİ

## *ədəbi-elmi təfəkkürün zirvəsində*

Əvvəlcə sərlövhəni yazdım və dayanıb baxdım. Fikrin, düşüncənin görünən və görünməyən tərəflərini bütövlükdə görmək istədim.

Elə həmin andaca nihilist bir "dostum" gözlərimin önündə peyda oldu:

"Bu hansı Nizamidir?"

"Sən hansını düşünürsən?"

"Əlbəttə, mənim ağlıma birinci Nizami gəlir".

"İkinci Nizami deyəndə sən kimi düşünürsən?"

"Yəqin ki, sən bu günümüzün Nizami Cəfərovunu yazmısan".

"Bəlkə, səhv etmişəm..."

"Səhv etmisən demək istəməzdim."

"Bəs nə demək istəyərdin?"

"Demək istəyərdim ki, bir alüdəçilik hiperbolasıdır sənin düşündüyün".

"Yox, dostum, düz düşünmürsən".

"Niyə?"

"Ona görə ki, sənin varlığına korluq hakimdir".

"Nə üçün elə düşünürsən? Mən də az-çox cəmiyyətin ağını-qarasını seçmək gücündəyəm".

"Yox, ona görə ki, sən cəmiyyətin işığını - insan təbiətinin ecazkarlığını görmək iqtidarında deyilsən".

"Bəlkə, sən əks fikri qəbul etmək iqtidarında deyilsən".

"Yox, dostum, indi bir daha inanıram ki, sən həqiqətən korsan".

"Sən müsahibinə qarşı dözüm göstərə bilmirsən".

"Çox təəssüf edirəm, mən sənin və sənin kimilərin - ağı qara rəngdə görənlərin qənaətləri ilə barışa bilmərəm. Azərbaycan mənəvi mühitinin qaranlıq tərəflərinin olduğunu da inkar etmirəm. Amma onu da bilirəm ki, bu qaranlıq tərəflərə işıq sala bilən zəkalarımız var. Və elə bizim yolumuz da bu zəkaların işığı ilə nurlanır".

"Qorxuram yolunuz qaranlığa düşə..."

"Yox, sənin qorxuluğunu götürməyə ehtiyac var, çildağa da gedə bilərsən. Ancaq biz zəkaların işığını görürük və elə əsas tapınacağımız da zəkaların işığıdır. Bu işıq qədim Orxon-Yenisey yazılarından üzü bəri "Dədə Qorqud" kitabından keçib gəlib, Nizami ilə ucalığa yüksəlib. Və bu günün Nizamisində bütün aydınlığı və parlaqlığı ilə görünməkdədir".

"Belə çıxır ki, Nizami Cəfərov deyəndə siz elə Nizamini düşünürsünüz".

"Bəli, etiraz etmək istəməzdim. Akademik Nizami Cəfərov bu gün ədəbi-elmi təfəkkürün zirvəsindədir. Bütün mənəvi potensialı ilə öz elmi məktəbinin banisidir və bu, inkarolunmazdır. Bu da sözümün canı:

*Ə.R.XƏLƏFLİ*
*23.09.2020*

Kredo 2020.- 22 sentyabr.- S.1.